

Səfir Rafael Harpaz universitetdə səh. 2

Saloniki Aristotel Universiteti ilə müqavilə səh. 2

Çinin Minzu Universitetinin nümayəndə heyəti BDU-da səh. 2

Özünü fəth etməyi bacar!

# Bakı Universiteti

1929-cu ildən çıxır
Təsisçi: Bakı Dövlət Universiteti

№ 06 (1442) 24 iyun 2013-cü il

Hüquq fakültəsində "Müdafiə otağı"nın açılış mərasimi səh. 2

"Biz Qurtuluş günü ilə həmyaşıdıq" səh. 4

Əbədi qurtuluş səh. 3

Bəkir Çobanzadə və türkologiyanın müasir problemləri səh. 3

Yay imtahan sessiyası səh. 4

Doğru danış, sağlam ol! səh. 8

Psixoloqa sual səh. 6

Mənim uşaqlıq şəklim səh. 8

Türkiyəli tələbələrin məzun günü səh. 5

İmanımızı itirməyək səh. 7

## Abel Məhərrəmov: "Xoşbəxt o xalqdır ki, onun ümummilli lideri var. Xalq o vaxt daha xoşbəxt olur ki, həmin siyasi kurs liderdən sonra da ölkədə uğurla davam etdirilir."





İnsan olmaq çətindir... səh. 6

Stress ilə mübarizənin 10 qızıl qaydası səh. 8

"Sirr"in sirri səh. 5

"Dost cana aynadır!" səh. 7

Səni itirməkdən qorxuram səh. 7

"Gözlənilməyəni də gözləyin, ailənizi qoruyun!" səh. 7

Özünü fəth etməyi bacar!
Bakı Universiteti

## POÇT QUTUSU

***BDU-nun rektoru,***
***millət vəkili***
***akademik Abel Məhərrəmova***

***Hörmətli Abel müəllim!***

Ulu öndərimiz Heydər Əliyevin 90 illik yubileyi münasibətilə MDB ölkələri aparıcı Ali Aqrar Təhsil Müəssisələri Rektorlar Şurasının iclasının Azərbaycan Dövlət Aqrar Universitetində keçirilməsi münasibətilə dərin məzmunlu təbrik məktubunuza görə Sizə səmimi qəlbdən minnətdarlığımı bildirirəm.

Fəxr edirik ki, Ümummilli Liderimiz Heydər Əliyev Azərbaycan universitetlərinin bayraqdarı olan Bakı Dövlət Universitetinin ən layiqli məzunlarındandır. Diqqətinizə görə bir daha Sizə dərin təşəkkürümü bildirirəm.

***Hörmətlə,***
***rektor əvəzi, prof.İ.H.Cəfərov***

***

***Hörmətli Abel müəllim!***

Qafqaz Universitetinin Kitabxana Fondunun zənginləşdirilməsi, gələcəyimiz olan gənclərin təlim-tərbiyəsi işinə maddi və mənəvi dəstəyinizə və Qafqaz Universitetinə hədiyyə olaraq təqdim etdi yiniz "Pedaqogika", "Biblioqrafik məlumat kitabı" , "Karbihidrogen xammalının kimyəvi emalı", "Neft kimyası və neft-kimyəvi sintez" və "Ümumi kimya texnologiyası" adlı kitablara görə Sizə şəxsim və rəhbərlik etdiyim kolektivin adından təşəkkürlərimi bildirir, peşə fəaliyyətinizdə və şəxsi həyatınızda uğurlar arzulayıram.

***Hörmətlə,***
***rektor, professor Ahmet Sanıç***

***

***Sayın Abel MƏHƏRRƏMOV***

17-21 nisan 2013 tarihləri arasında gerçekləştirdiyimiz Azerbaycan ziyareti sırasında şahsıma və beraberimizdeki heyətə göstərmiş olduğunuz içtenlik və misafirperverlik bizi ziyadesiyle memnun etmişdir. İlginizdən dolayı teşekkür eder, sayğılarımla çalışmalarınızda başarılar dilerim.

***Hörmətlə,***
***Prof. Dr. Mansur HARMANDAR***
***Muğla Sıtrı Koçman Universitesi rektörü***

# Hüquq fakültəsində "Müdafiə otağı"nın açılışı



*Abel Məhərrəmov: "Xoşbəxtlik həm də insanları sevə bilmək, onlara hörmətlə yanaşmaqdadır"*

Hüquq fakültəsində "Müdafiə otağı"nın açılış mərasimi keçirilib. Mərasimdə universitetin dekan və kafedra müdirləri, o cümlədən hüquq fakültəsinin professor-müəllim heyəti iştirak edib.

Tədbirdə çıxış edən akademik Abel Məhərrəmov Qurtuluş Günü münasibətilə belə bir əhəmiyyətli otağın istifadəyə verilməsindən məmnunluğunu ifadə edib. Rektor fakültədə son bir ildə baş verən yeniliklərdən, nailiyyətlərdən bəhs edib. ***O, fakültənin kadr potensialının daha da inkişaf etməsindən, maddi-texniki bazasının möhkəmlənməsindən danışıb:*** "Bu ildən etibarən 6 ixtisas üzrə Müdafiə Şurasının fakültəyə həvalə edilməsini də yüksək dəyərləndirir, kollektivə bundan sonrakı fəaliyyətlərində uğurlar arzulayıram". Rektor fakültə məzunlarının yüksək savada malik olduqlarını və təhsil aldıqları müddətdə dövlətçilik, milli təəssübkeşlik kimi mənəvi xüsusiyyətlərə də yiyələndiklərini deyib: "Elə bunun nəticəsidir ki, dövlət qulluğuna keçirilən imtahanlarda yüksək nəticə göstərən məzunların 82 faizi BDU-nun məzunlarıdır". Rektor həmçinin kollektivin mehriban münasibətlərinə də toxunub, təhsilin inkişafında görülən işlərlə yanaşı tələbələrlə qurulan xoş münasibətlərin vacibliyini bildirib: "Mən Nazim Hikmətin "Xoşbəxt o adamdır ki, səhər işə, axşam isə evə tələsir" fikrini təqdir edirəm. Bununla yanaşı əlavə etmək istəyirəm ki, xoşbəxtlik həm də insanları sevə bilmək, onlara hörmətlə yanaşmaqdadır".

*Sonra dekan, professor Əmir Əliyev fakültənin maddi-texniki bazasının möhkəmləndirilməsi, yeni ixtisasların açılması, qəbul planın artırılması, eyni zamanda xüsusi müdafiə şuralarının təşkil olunması istiqamətində rektor, akademik Abel Məhərrəmovun göstərdiyi təşəbbüslərə görə bütün əməkdaşlar adından təşəkkür edib.*

*Universitetimizin beynəlxalq əlaqələri*

# Səfir Rafael Harpaz universitetdə



***İsrailin ölkəmizdəki səfiri Rafael Harpaz Universitetdə olub. Rektor, akademik Abel Məhərrəmov səfirlə görüşərək universitet və onun beynəlxalq əlaqələri barədə ətraflı məlumat verib, İsrail universitetləri ilə əməkdaşlığın əhəmiyyətindən bəhs edib.*** Rafael Harpazın artıq bir ildir ki, Azərbaycanda fəaliyyət göstərdiyini və çox böyük təcrübəyə malik olduğunu bildirən akademik A.Məhərrəmov səfirin təhsil sahəsində əlaqələrin inkişafına təkan verəcəyinə əminliyini ifadə edib: "Prezident İlham Əliyev Azərbaycanda neft və qaz gəlirlərinin insan kapitalı və təhsil məqsədilə istifadə edilməsinin əhəmiyyətindən bəhs edir. Biz də öz növbəmizdə həmin istiqamət üzrə fəaliyyət göstəririk". Ölkələrimiz arasında iqtisadi sahədə münasibətlərin inkişaf etdiyini vurğulayan rektor, İsrail universitetləri ilə təhsil sahəsindəki səmərəli fəaliyyətimizin dostluq əlaqələrimizin daha da möhkəmlənməsinə xidmət edəcəyini bildirib.

Şərqşünaslıq fakültəsinin dekanı, dosent Elxan Əzizov isə universitetdə ibri dilinin tədrisi barədə məlumat verib: "BDU-da ibri dili 1993-cü ildən tədris edilir. İbri dili şöbəsinə hər il 8 tələbə qəbul edilir. Hazırda isə 32 bakalavr və 2 magistr bu istiqamətdə təhsil alır". E.Əzizov tələbələrin ibri dilini böyük həvəslə mənimsəmələrindən, fakültədə onlar üçün yaradılan şəraitdən bəhs edib. Dekan istehsalat təcrübəsi keçilməsinə köməklik göstərdikləri üçün səfirə təşəkkür edib.

Səfir Rafael Harpaz isə ölkəmizdə olduğu müddətdə çoxsaylı görüşlər keçirdiyini, BDU-da olmasından isə xüsusi məmnunluq duyduğunu deyib. O, Azərbaycanla İsrail arasında ikitərəfli münasibətlərin yüksələn xətt üzrə inkişaf etməsini vurğulayaraq təhsil və elm müstəvisində də əməkdaşlığın əhəmiyyətindən bəhs edib. Səfir BDU-da İbri dili mərkəzinin fəaliyyətindən məmnunluğunu ifadə edərək mərkəzin fəaliyyətini daha da inkişaf etdirməkdə maraqlı olduqlarını deyib. Təhsil və sənayenin əlaqələndirilməsinin vacibliyini bildirən səfir təhsilin istehsalat üzərində inkişaf etdirilməsinin müsbət tərəflərindən danışıb.

Görüşdə humanitar və fundamental elm sahəsində əməkdaşlıq, o cümlədən İsrail universitetlərində tələbələrin praktikası, BDU-da müəllimlərin, o cümlədən mütəxəssislərin mühazirələrinin təşkil edilməsi məsələləri müzakirə edilib.

Qeyd edək ki, görüşdə elm və innovasiyalar üzrə prorektor Aydın Kazımzadə, səfirin müavini Ronen Krauz, xarici tələbələrlə iş üzrə dekan Gülheyran Rəhimova da iştirak ediblər.

***Sonda qonaqlar Tədris Elektron Mərkəzinə baş çəkib, tədris və elmi-tədqiqat laboratoriyaları ilə yaxından tanış olublar.***

# Çinin Minzu Universitetinin nümayəndə heyəti BDU-da



***Rektor, akademik Abel Məhərrəmov Çinin Minzu Universitetinin prorektoru Song Minin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.***

Akademik Abel Məhərrəmov nümayəndə heyətinə BDU haqqında məlumat verərək, bir çox xarici universitetlərlə qısa zaman ərzində qurulan uğurlu əməkdaşlıqdan bəhs edib. Universitetdə Çin dili və ədəbiyyatının tədris olunduğunu bildirən rektor Minzu Universiteti ilə sıx əməkdaşlıqda maraqlı olduqlarını bildirib. Çinin Minzu Universitetinin prorektoru Song Min rektorla həmfikir olduğunu və təhsil sahəsində əlaqələrin genişləndirilməsinin əhəmiyyətini qeyd edib. Görüş zamanı müəllim-mütəxəssis əməkdaşlığı, aspirant və dissertantların elmi tədqiqatlar aparmaları, birgə konfransların keçirilməsi, tələbələrin Minzu Universitetində təcrübə keçmələri məsələləri müzakirə edilib. Sonda müzakirə edilən məsələlərin tətbiqini nəzərdə tutan Anlaşma Memorandumu imzalanıb.

Qeyd edək ki, görüşdə elm və innovasiyalar üzrə prorektor professor Aydın Kazımzadə , beynəlxalq əlaqələr və əməkdaşlıq üzrə prorektor dosent ***Şəlalə Məmmədova , Şərqşünaslıq fakültəsinin dekanı, dosent Elxan Əzizov, BDU nəzdindəki Konfutsi İnstitutunun direktoru dosent Oktay Cəlilbəyli də iştirak ediblər.***

# Saloniki Aristotel Universiteti ilə müqavilə imzalanıb

Rektor, akademik Abel Məhərrəmov Yunanıstan Respublikasının Saloniki Aristotel Universitetinin rektoru İoannis Milopulosu qəbul edib. Rektor A.Məhərrəmov qonağa universitetin tarixi və bu günü barədə məlumat verib. Universitetin bir çox ölkələrlə əməkdaşlıq etdiyini bildirən rektor Saloniki Aristotel Universitetilə də əməkdaşlığın əhəmiyyətini vurğulayıb.

Rektor İoannis Milopulos Saloniki Aristotel Universitetinin çox qədim tarixə malik olduğunu və hazırda 80 mindən artıq tələbəsinin olduğunu qeyd edib. İ.Milopulas BDU ilə təhsil sahəsində əlaqələri genişləndirməkdə maraqlı olduqlarını deyib. Görüş zamanı konfransların keçirilməsi, elmi-tədqiqat işlərinin həyata keçirilməsi, müəllim-tələbə mübadiləsinin əks olunduğu əməkdaşlıq müqaviləsi imzalanıb.



**Universitetlə yaxından tanış olan qonaqlar xoş təəssüratla ayrılıblar.**

# Əbədi qurtuluş

***İyunun 14-də Milli Qurtuluş Gününə həsr olunmuş tədbir keçirildi. Giriş sözü ilə çıxış edən rektor, akademik Abel Məhərrəmov iştirakçıları salamladı, 20 ildə respublikamızın keçdiyi inkişaf yoluna nəzər salıb hadisələri ətraflı təhlil etdi, ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışının xalqımızın həyatında dirçəlişə səbəb olduğunu vurğuladı:*** “Bu gün tarixi bir gündür. Azərbaycan xalqının həyatında, tarixində xüsusi əhəmiyyəti olan bayramdır. 15 iyun 1993-cü il xalqın həyatında yeni mərhələnin başlanğıcıdır. Bu gün Azərbaycanda sabitlikdir. Dinamik inkişaf göz qabağındadır”.



20 il ərzində bütün sahələrdə qazanılan saysız-hesabsız uğurlardan bəhs edən rektor təhsil sahəsində də gənclərimizin böyük uğurlar qazandığını vurğuladı: “ Bizim uğurumuz Heydər Əliyev siyasətinə sadiq qalmaqdır. Bizim uğurumuz prezident və xalq vəhdətinə nail olmaqdır”.







Hazırda ölkə prezidenti tərəfindən uğurla davam etdirilən siyasi kurs, qeyri -neft sektorunun inkişafı, elm, təhsil sahəsindəki uğurlar və bu uğurlarda BDU-nun xüsusi rolunun olması, tələbələrimizin müsabiqələrdə birincilik əldə edərək respublikamızı yüksək səviyyədə təmsil etməsi sevincini paylaşan rektor qazanılan uğurlarda ölkə rəhbərinin ümummilli liderin ideyalarını yaşatmasından, xalqa diqqət və qayğısından, yaradılan əlverişli şəraitin əhəmiyyətindən danışdı: “Bəli, biz xoşbəxt xalqıq. Mən hər zaman demişəm, indi də deyirəm: Xoşbəxt o xalqdır ki, onun ümummilli lideri var. Xalq o vaxt daha xoşbəxt olur ki, həmin siyasi kurs ölkədə liderdən sonra da uğurla davam etdirilir.Biz hər zaman bu siyasətə dəstək veririk. Bu həm qurtuluş, həm dirçəliş və həm də inkişaf bayramıdır. Mən əminəm ki, gənclərimiz müstəqil Azərbaycanımızı daha da inkişaf etdirəcəkdir”.

***BDU-nun Konstitusiya hüququ kafedrasının müdiri, Azərbaycan Respublikası Milli Məclisi Sədrinin birinci müavini, professor Ziyafət Əsgərov*** çıxışında xalqımızın azadlıq arzusu, müstəqillik uğrunda apardığı mübarizə, onu əldə etdikdən sonra qoruyub saxlamaq üçün mücadilə dolu həyatından bəhs edərkən ulu öndərin fikrinə istinad etdi: “Müstəqilliyi əldə etmək çox çətindir. Onu qoruyub saxlamaq isə ondan qat-qat çətindir”.

Ulu öndərin dövlət atributlarının bərpası, sabitlik, konstitusiyanın qəbulu, vətəndaşların ondan faydalana bilməsinin təşkili, tolerantlıq, ölüm hökmünün ləğvi, insan hüquq və azadlıqlarının qorunmasını təmin etmək sahəsində gördüyü işlərdən danışan Ziyafət müəllim qeyd etdi ki, ümummilli lider stereotipləri qırmağı bacaran insan idi. O, Azərbaycanda tolerant bir cəmiyyət formalaşdırmağa cəhd göstərmişdir.

**Azərbaycan Respublikası Milli Məclisinin İqtisadi Siyasət Komitəsinin sədri, akademik Ziyad Səmədzadə** çıxışında müstəqillik qazandığımız zamanla artıq dünyada tanınan Azərbaycanı müqayisə etdi, onun maliyyə durumu, dinamik iqtisadi inkişafından danışdı. Qeyd etdi ki, müstəqilliyin ilk illərində Azərbaycana investisiya qoyulmadığı halda, indi respublikamız investor kimi çıxış etmək iqtidarındadır və bunu uğurla reallaşdırır.O, büdcə gəlirlərimizin 20 milyardı ötməsinin səbəbinin neft strategiyası, qeyri-neft sektorunun inkişafı ilə əlaqədar olduğunu vurğuladı.

***Millət vəkili Musa Qasımlı*** çıxışında qeyd etdi ki, Azərbaycan çoxsaylı uğurlar qazandığı bu gününü qorumalıdır: “ Vaxt var idi ki, ona borc verən yox idi. İndi Azərbaycan borc alan dövlətdən borc verən dövlətə çevrilir. Göylərə kimlər nəzarət edirsə, yerə də nəzarət edir. Milli peykin fəzaya buraxılması , Evrovisionun Azərbaycanda keçirilməsi ölkənin nüfuzunun göstəricisidir. Biz bu günümüzü qorumalıyıq”.

***BDU-nun hüquq fakultəsinin III kurs tələbəsi, Yeni Azərbaycan Partiyasının V Qurultayının məruzəçisi Yavər Məmmədova*** çıxışında Abel müəllimə tələbələr adından təşəkkür etdi, gənclərin İlham Əliyevin siyasi kursunu dəstəklədiyini bildirdi, Qurtuluş Gününün onlar üçün dəyərli olduğunu bildirdi: “Bizlər qurtuluşun övladlarıyıq. Bununla fəxr edirik. Bu dövlət bizə əmanətdir. Onun inkişafı namınə çalışacağıq”.

***Sonda tədbir iştirakçılarına təşəkkür edən rektor universitet kollektivinin prezident seçilərində İlham Əliyevi dəstəkləyəcəyini bildirdi:*** “Bizim Yavər kimi tələbələrimiz az deyil. Onlar Azərbaycanı yüksək mövqelərə ucaldacaqlar. Biz xoşbəxtik ki, Azərbaycanda doğulmuşuq.Ümummilli liderin dediyi kimi: “Hər bir xalqın milli mənsubiyyəti onun qürur mənbəyidir”. Biz Azərbaycanın bu azad gününü qorumalıyıq. ***Qarşıdan prezident seçkiləri gəlir. Biz bu günü qorumalıyıq. Onu qorumaq üçün prezidenti dəstəkləməliyik. Möhtərəm prezident İlham Əliyevin bir nömrəli sosial dayağı Bakı Dövlət Universitetidir”.***

# Bəkir Çobanzadə və türkologiyanın müasir problemləri

*May ayının 31-də Bakı Dövlət Universitetində görkəmli dilçi alim, ədib, professor Bəkir Çobanzadənin 120 illik yubileyinə həsr olunmuş “Bəkir Çobanzadə və türkologiyanın müasir problemləri” adlı Respublika elmi konfransı keçirildi.*

## “Çobanzadə nümunəvi bir həyat yaşayıb”

Plenar iclası giriş sözü ilə açan universitetin rektoru, akademik Abel Məhərrəmov konfrans iştirakçılarını salamladı, Bəkir Çobanzadənin həyatı, təhsili, mühiti, çoxşaxəli fəaliyyəti, türk milli düşüncəsinin formalaşması və inkişafı naminə göstərdiyi xidmətlərindən danışdı: “Bəkir Çobanzadə yalnız Azərbaycanın deyil, bütün türk dünyasının elm, mədəniyyət tarixində misilsiz xidmətlər göstərmiş ziyalımız, böyük alimimizdir. Mən onun vətənində olmuşam. Onu tanıyan insanlarla görüşmüşəm, həmvətənlərində Çobanzadənin ruhunu duymuşam. İndi universitetdə tələbələrlə görüş zamanı onun məhrumiyyətlərlə, hər anı mübarizələrlə dolu həyatını bütün tələbələrə nümunə göstərirəm. Təqdirəlayiq haldır ki, maddi çətinliklərə baxmayaraq, Çobanzadə sözün bütün mənalarında nümunəvi bir həyat yaşayıb. Onun məfkurəsi, ideyaları bu gün də yaşayır və mən inanıram ki, türkoloqlarımızın səyi nəticəsində həmişə yaşayacaqdır”.

Rektorun çıxışından sonra Bəkir Çobanzadəyə həsr olunmuş “Ədəbi karvan” adlı sənədli film nümayiş etdirildi.

## “Universitetimizdə Bəkir Çobanzadəyə həmişə isti münasibət olub”

AMEA-nın müxbir üzvü, Türkologiya kafedrasının müdiri, professor Tofiq Hacıyev “Bəkir Çobanzadənin elmi fəaliyyəti” adlı məruzəsində böyük alimin zəngin elmi fəaliyyətindən, həyatının Azərbaycanla bağlı əsas məqamlarından ətraflı şəkildə söhbət açdı: “Universitetimizdə Bəkir Çobanzadəyə həmişə isti münasibət olub. Onun adını daşıyan auditoriya və elmi laboratoriya yaradılıb. Böyük şərqşünas Bəkir Çobanzadə Mirzə Kazım bəy səviyyəsində xidmətlər göstərib. 44 il yaşasa da, türkologiyanın yaranması və formalaşmasında böyük xidmətləri olub. İlk türkoloji qurultayın təşkil olunması ona tapşırılıb. Onun qısa, lakin mənalı, məhsuldar həyatının 12 ili Azərbaycanla bağlıdır. Bəkir Çobanzadə mübahisələri ortaq məxrəcə gətirən alimimizdir”.

Universitetin Türk xalqları ədəbiyyatı kafedrasının müdiri, Bəkir Çobanzadə mükafatı laureatı, professor Ramiz Əskər çıxışında onun Avropa standartlarına uyğun şəkildə yetişmiş ilk alimimiz olduğunu vurğuladı. Filologiya fakültəsinin tələbələri həm də gözəl şeirlər müəllifi olan B.Çobanzadənin “İstək” və “Ana dili ” şeirlərini söylədilər.

BDU-nun prorektoru, professor Aydın Kazımzadə, AMEA-nın Nizami adına Ədəbiyyat İnstitunun direktoru, professor Teymur Kərimli, Folklor İnstitunun direktoru, professor Muxtar İmanov, ADPU-nun filologiya fakültəsinin dekanı, professor Buludxan Xəlilov çıxış edərək konfransın əhəmiyyətindən danışdılar.

Sonda BDU-nun filologiya fakültəsinin dekanı, dosent Məhərrəm Vəliyev konfrans iştirakçılarına, tədbirin təşkilində böyük zəhməti olan “Bəkir Çobanzadə adına Türkoloji araşdırmalar” Elmi-tədqiqat laboratoriyasının elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru Ülviyyə xanım Hüseynovaya, gənc tədqiqatçılar: Pərvin Eyvazov, Anar Fərəcov, Ramil Bayramov, Şəbnəm Şəmsəddinova və Nuray Xıdırovaya təşəkkürünü bildirdi, konfransın işinə uğurlar arzuladı.

*Ümumilikdə 72 məruzənin təqdim edildiyi konfrans 3 bölmədə: “Bəkir Çobanzadə - böyük filoloq”, “Türkologiyanın aktual problemləri” və “Azərbaycan türkcəsi: müasir dil, dialektologiya” adlı bölmə iclaslarında öz işini yüksək səviyyədə davam etdirdi, məruzələr əsasında diskussiyalar aparıldı, universitetimizdə elmin inkişafı naminə növbəti uğurlu addım atılmış oldu.*

Səhifəni təqdim etdi: ***İlahə Dadaşova, filologiya fakültəsinin dissertantı***

*Yeni Azərbaycan Partiyasının V qurultayında BDU Hüquq Fakültəsinin tələbəsi Yavər Məmmədovanın çıxışı*

# "Biz Qurtuluş günü ilə həmyaşıdıq"

*Möhtərəm Cənab Prezident!*
*Hörmətli Sədrimiz! Əziz Qurultay Nümayəndələri!*

Yeni Azərbaycan Partiyasının V qurultayında Azərbaycan gəncləri adından hamınızı səmimi qəlbdən salamlayır və qurultayın işinə uğurlar arzulayıram. Belə bir ali məclisdə, xüsusilə də cənab Prezident, Sizin qarşınızda çıxış etmək hər bir Azərbaycan gənci kimi, mənim üçün də sözlə ifadə edilməyəcək qədər böyük bir şərəfdir.

**Hörmətli Qurultay Nümayəndələri!**

Bugünkü Azərbaycan gəncliyi Ümummilli Liderimiz Heydər Əliyevin xalqımız qarşısındakı nəhəng xidmətlərini taleyüklü misilsiz işlər kimi dəyərləndirir, onun xalqımıza bəxş etdiyi minlərlə əvəzsiz nemətlər içərisində Azərbaycanın müstəqilliyini, elmin-təhsilin inkişafını, iqtisadi yüksəlişi, gəncliyə açılan yolları və nəhayət bu gün qurultayına toplaşdığımız Yeni Azərbaycan Partiyasını dahi siyasətçi Heydər Əliyevin şah əsəri hesab edirik.

Ulu Öndərimiz Heydər Əliyevin bünövrəsini qoyduğu siyasətin, Cənab Prezident, Sizin tərəfinizdən uğurla davam etdirilməsinin nəticəsidir ki, bu gün gənclərimiz ölkənin ictimai-siyasi həyatında aktiv iştirak etməklə yanaşı, beynəlxalq miqyasda da ardıcıl uğurlar qazanırlar. Gənclərimiz fəxr edir ki, bu gün dövlətimiz inkişafın Azərbaycan modelini yaradaraq yüksək və dinamik sosial-iqtisadi sıçrayışa nail olmuş, geniş beynəlxalq müqavilələr sisteminə qoşulmuş, mühüm beynəlxalq təşkilatların üzvü olmuş, özünün demokratik və hüquqi dövlət imicini beynəlxalq aləmdə tam formalaşdırmışdır. Nəhayət, dövlətimizin ən ali qurum olan BMT Təhlükəsizlik Şurasının üzvü seçilməsi Cənab Prezident, şəxsən Sizin və gənc Azərbaycan dövlətinin tarixi qələbəsidir.



Fürsətdən istifadə edərək, dövlətin Gənclər Siyasətinin uğurla həyata keçirilməsində Heydər Əliyev Fondunun Prezidenti, Milli Məclisin deputatı hörmətli Mehriban xanım Əliyevanın misilsiz xidmətlərini xüsusi vurğulamaq istərdim. Məhz Mehriban xanımın yüksək təşkilatçılıq bacarığı nəticəsində Bakıda keçirilən "Eurovision" musiqi yarışması bu gün də digər dövlətlərə nümunə göstərilir. Təsadüfi deyil ki, məhz bu uğurları rəhbər tutaraq beynəlxalq idman ictimaiyyəti ilk Avropa İdman Olimpiadasının Bakıda keçirilməsinə qərar verilib.

***Cənab Prezident***, həyata keçirdiyiniz dərin məzmunlu siyasət nəticəsində vaxtilə Ulu Öndərimiz Heydər Əliyevin də təhsil aldığı və bu yaxınlarda 100 illik yubileyini qeyd edəcəyimiz Bakı Dövlət Universitetində təhsil sahəsində aparılan islahatların, Boloniya sisteminə keçidin müsbət təsirinin, informasiya-kommunikasiya texnologiyalarının tələbələrin qlobal dünyaya inteqrasiyası üçün yaratdığı imkanların şahidiyəm. Təhsil aldığım universitetdə Sizin dəstəyiniz və köməyinizlə Avropanın, Amerikanın qabaqcıl ali məktəblərində oxuyub qayıdan gənc müəllimlər auditoriyalarda bizə müxtəlif fənləri yüksək peşəkarlıqla tədris edirlər. Auditoriyalarımıza tez-tez dəvət olunan əcnəbi mütəxəssislər, keçirilən beynəlxalq tədbirlər nəticəsində tələbələrimiz qabaqcıl xarici təcrübələrlə, beynəlxalq elmi mühitlə yaxından tanış olurlar. Məsələn, mənim oxuduğum Hüquq fakültəsində ən prioritet elmi ixtisaslar üzrə magistr hazırlığı xarici mütəxəssislərin cəlb olunması ilə yalnız ingilis dilində aparılır və məzunlara Avropanın qabaqcıl universitetlərinin ikili diplomları verilir. Düşünürəm ki, bu nailiyyətlər Sizin "Neft kapitalını insan kapitalına çevirək!" şüarınızla uğurla səsləşməkdədir.

***Möhtərəm Sədrimiz! Dəyərli Qurultay Nümayəndələri!***

Təxminən bir həftə sonra biz Ulu Öndər Heydər Əliyev tərəfindən Vətənin xilasının növbəti ildönümünü - Qurtuluş gününün 20 illiyini təntənə ilə qeyd edəcəyik. Bundan iki ay sonra isə mənim və bəlkə mənim kimi minlərlə gəncin 20 yaşı olacaq. Biz Qurtuluş günü ilə həmyaşıdıq. Bəli, biz Qurtuluşun övladlarıyıq! Biz bunu fəxrlə deyirik, məsuliyyətini isə qürurla daşıyırıq! Bu Dövlət, bu Vətən Ulu Öndər tərəfindən bizlərə əmanətdir və onun müstəqilliyi, tərəqqisi naminə Cənab Prezident, Sizin rəhbərliyiniz altında canımızdan da keçməyə hazırıq!

***Möhtərəm, Cənab Prezident!*** Bu xalq, bu millət sizlərdən ilham alır. Siz Azərbaycanımızın uğur simvolusunuz, Böyük Azərbaycanlı, Ən Böyük Vətənpərvərsiniz! Məhz Sizin fövqəladə zəhmətinizin, yaradıcı zəkanızın nəticəsidir ki, bu gün doğma paytaxtımız Bakı dünyanın ən gözəl və sürətlə inkişaf edən şəhərlərindən birinə çevrilib. Azərbaycan xaos mühitindən kosmik proqram qəbul edəcək səviyyəyə qədər yüksəlib. Bu mötəbər tribunadan istifadə edərək Azərbaycan Gəncliyinin bir mesajını da ölkəmizin bu günkü inkişafını gözü götürməyən dairələrə çatdırmaq istəyirəm: Bütün həyatı boyunca ictimai faydalı iş əmsalı sıfıra bərabər olan, özünə müxalifət adı verən qaragüruhçular Möhtərəm Cənab Prezident, Sizin Vətən və Millət qarşısındakı tarixi xidmətlərinizin miqyası və çəkisi altında qalıb əziləcəklər, tarixin arxivinə birdəfəlik gömüləcəklər!

***Əziz Sədrimiz!*** Əvvəl qeyd olunanları nəzərə alaraq, Azərbaycan xalqı və onun avanqard təbəqəsi olan Gəncliyin ümumi qənaətini ifadə edərək, Yeni Azərbaycan Partiyasının V Qurultayından və şəxsən Sizdən növbəti müddətə prezident vəzifəsinə namizədliyinizin irəli sürülməsini xahiş edirik. Yalnız Siz böyük, zəngin və qüdrətli Azərbaycanın təminatçısı və rəhbəri ola bilərsiniz. Yalniz Sizin rəhbərliyiniz altında ölkəmizin tarixi nailiyyətlərinin davamlılığı təmin ola bilər. Yalnız Sizin simanızda Azərbaycan Xalqı öz firavan gələcəyinin qarantını və misilsiz dövlət xadimini görür.

***Yaşasın müstəqil Azərbaycan!***

***Yaşasın Yeni Azərbaycan Partiyası!***

***Yaşasın dövlətini, millətini yeni-yeni zəfərlərə aparan Prezidentimiz İlham Əliyev!***

# Yay imtahan sessiyası

6 iyundan universitetin bakalavriat səviyyəsi üzrə əyani şöbənin I-III kurslarında və magistraturada yay imtahan sessiyası keçirilir. Yazılı formada keçirilən imtahanlar iyulun 29-da başa çatacaq. İmtahanlar ərəfəsində rektor akademik Abel Məhərrəmov müəllim və tələbələrlə görüşüb. Yay imtahan sessiyasının keçirilməsindən bəhs edib, dekanları, koordinator və rəhbər koordinatorları prosesə ciddi nəzarət etməyə, tələbələrin biliyini obyektiv qiymətləndirməyə səsləyib.

Sessiyanın gedişinə operativ nəzarət etmək məqsədi ilə qış imtahan sessiyası müddətində professor İ.Ə.Əliyevin sədrliyi ilə yaradılmış qərargah və apelyasiya komissiyası yay imtahan sessiyası zamanı da fəaliyyətini davam etdirəcək. Qeyd edək ki, əmrə uyğun olaraq, Qərargahın nəzdində universitet üzrə "Qaynar xətt" yaradılıb və bu məqsədlə universitetin əsas binasında və tədris korpuslarında şikayət, təklif və məlumatlar üçün hər gün mövcud qaydada möhürlənməklə xüsusi qutular asılıb. Qərargahın sədrinə tapşırılıb ki, sessiya müddətində imtahanların gedişi ilə əlaqədar ərizə, təklif və Təhsil Nazirliyi "qaynar xətti" ilə daxil olmuş şikayətlərin araşdırılmasını təmin etsin və bu barədə tədbir görülməsi məqsədilə müvafiq təkliflər versin. İmtahanların nəticələri barədə şikayətlərə baxmaq və aşkar edilmiş çatışmazlıqları aradan qaldırmaq məqsədilə Qərargahın nəzdində təbiət və humanitar fakültələr üzrə apellyasiya komissiyaları yaradılıb.



2012/2013-cü tədris ilində IV kursların yay imtahan sessiyası zamanı köçürmə hallarına yol vermiş və ya universitetdaxili nizam-intizam qaydalarını pozmuş aşağıda adları qeyd olunan tələbələr R-102 saylı 14.10.2011-ci il tarixli əmrə əsasən müvafiq qaydada cəzalandırılmaları barədə əmr imzalanıb. Belə ki, onlara töhmət elan edilməsi və həmin fəndən yay semestrinə buraxılmamaları, valideynlərinin rektorluğa dəvət edilmələri və onlara bu barədə məlumat verilməri nəzərdə tutulub. Əmrə əsasən həmin tələbələr BDU tələbə təşkilatlarında müzakirə edilib və onların vəsatəti əsasında yalnız müvafiq semestrdə kredit götürmək şərti ilə təkrar dərslərə buraxılmaları qərara alınıb. Təkrar köçürmə halına yol verən və ya nizam-intizam qaydalarını pozan tələbələrin isə universitetdən xaric edilmələri qərara alınıb.

***Həmin tələbələrin siyahısını təqdim edirik:***

1.Fizika fakültəsi
Abdurəhmanova Fidan Bəhlul qızı, fizika, IV kurs
Dədəverdiyev Yaşar Etibar oğlu, fizika, IV kurs
Qurbanova Şərab Oleqovna qızı, fizika, IV kurs
Məmmədova Esmiralda Rafiq qızı, fizika, IV kurs

2. Mexanika-riyaziyyat fakültəsi
Səfərli Elmir Fəraməz oğlu, mexanika-riyaziyyat, IV kurs
Əhmədova Ülviyyə Rafail qızı, mexanika-riyaziyyat, IV kurs
Rizvanlı Məhəmməd Bahadur qızı, mexanika-riyaziyyat, IV kurs
Yaqudina Ülviyyə Əliyevna qızı, mexanika-riyaziyyat, IV kurs

3. Tətbiqi riyaziyyat və kibernetika fakültəsi
Ağabalayeva Firuzə Fizuli qızı, tətbiqi riyaziyyat və kibernetika, IV kurs
Şükürlü Ləman Elşən qızı, tətbiqi riyaziyyat və kibernetika, IV kurs
Aslanova Humay Muxtar qızı, tətbiqi riyaziyyat və kibernetika, IV kurs
Həsənli Aytən Füzuli qızı, tətbiqi riyaziyyat və kibernetika, IV kurs

4. Ekologiya və torpaqşünaslıq fakültəsi
Əliyev Elgün Elman oğlu, ekologiya və torpaqşünaslıq, IV kurs

5. Kimya fakültəsi
Əliyev Namiq Müqəddəs oğlu , kimya, IV kurs

6. Biologiya fakültəsi
Bəşirli Mədinə Salman qızı, biologiya, IV kurs

7. İlahiyyat fakültəsi
Qəribov Lətif Rahib oğlu, ilahiyyat, IV kurs

**Kəramət Böyükçöl**

# “Sirr”in sirri

*Bu dəfəki müsahibim jurnalistika fakültəsinin dosenti, "Jurnalistika" Elmi-tədqiqat laboratoriyasının müdiri, tədqiqatçı və yazar Vüqar Əliyev idi. Səmimi insan, məsuliyyətli müəllim, yorulmaz tədqiqatçı və özünəxas üslubu olan yazar Vüqar Əliyev mənim üçün çox maraqlı həmsöhbət və müsahib oldu.*

**- Necə təqdimatdan xoşunuz gəlir?**

- Bakı Dövlət Universitetinin jurnalistika fakültəsinin müəllimi. Doğma universitetimizin müəllimi üçün bundan gözəl təqdimat ola bilməz.

**- Jurnalist, tədqiqatçı, müəllim və yazar - hansı sizə daha yaxındır?**

- Müəllimlik, təbii ki. Yəni müəllimlik elə bir sənətdir ki, öz gözəlliyi və incəliyi ilə fərqlənir. Müəllim olmaq insana qürur verir, müəyyən mənada özünə hörməti artırır. Təbii ki, insan öz əməli və davranışı ilə bu ada layiq olmalıdır. Müəllimlik yalnız öyrətmək deyil, eyni zamanda öyrənməkdir. Müəllim eyni zamanda öz tələbəsinə düzgün istiqamət verməyi bacaran insandır. O müəllim yaxşı müəllimdir ki, ona inam və etibar var.

**- Jurnalistika xüsusi istedad tələb edən sahədir. Bu istedadı özünüzdə nə vaxt aşkarlamısınız?**

- Mən məktəbdə oxuduğum zaman istər məktəb, istərsə də Bakı şəhəri üzrə müxtəlif inşa müsabiqələrində ilk yerləri tuturdum. Yəni məktəb yaşlarımdan yazmağa marağım olub və bu məndə deyilənə görə pis alınmayıb. Ali məktəbə də sənəd verərkən jurnalistikanı birinci sırada qeyd etmişdim; Allahın izni ilə, elə ora da qəbul oldum. Həmişə də yazmaq istəmişəm, bundan zövq almışam, yəni öz peşəmi çox sevirəm.

**- Tələbələrinizdən əsas tələbləriniz nədən ibarətdir? İdeal tələbə-müəllim münasibəti necə qurulmalıdır?**

- Bir müəllimin tələbəsindən yeganə istəyi, tələbi onun öz üzərində işləməsi və oxumasıdır. Konkret öz sahəmiz üzrə danışsaq, biz jurnalistlər müxtəlif sahələrin insanlarından müsahibələr alır, onlarla ünsiyyətdə oluruq, ona görə də bizim sahənin tələbələri yalnız özlərinə aid ədəbiyyatlarla kifayətlənməməli, bütün sahələr üzrə çoxlu sayda ədəbiyyat oxumalı, öz dünyagörüşlərini maksimum dərəcədə artırmalıdırlar. Yoxsa özlərini bir jurnalist kimi təsdiqləyə bilməzlər. O ki qaldı ideal tələbə-müəllim münasibətlərinə, əvvəldə də qeyd etdiyim kimi, tələbə və müəllim arasında qarşılıqlı hörmət və inam olmalıdır. İki tərəf arasında səmimiyyət saxlanmalıdır. Tələbə müəlliminə yalnız hörmət etməli deyil, ona həm də etibar etməlidir, inanmalıdır. Müəllim də onu düzgün istiqamətləndirməyi bacarmalıdır. Bax əsl ideal tələbə-müəllim münasibətləri məhz bu səpkidə qurulmalıdır.

**- Yeni kitabınızın nəşri münasibəti ilə Sizi təbrik edirik. Bizi kitabınızın qısa məzmunu ilə tanış edərsinizmi?**

- Təşəkkür edirəm. Türk dövlətləri arasında Xəzər xaqanlığı 16 böyük türk imperiyasından biri hesab olunur. Kifayət qədər qüdrətli bir dövlət olub. Xəzər xaqanlığı çox çətin bir dövrdə yaranıb və daxili münaqişələr nəticəsində də süquta uğrayıb. Xaqanlığın ən vacib özəl xüsusiyyəti bundan ibarətdir ki, dövlətin idarəçiləri etnik mənşəcə xəzər türkləri olsalar da, dini nöqteyi nəzərdən musəvi, yəni yəhudi dinində olublar. Lakin xəzərlər arasında İslamı qəbul edənlər də olub ki, bu bir qədər sonrakı əsrlərə təsadüf edir. Xəzər xaqanlığı dinlərə tam tolerant yanaşması ilə bu gün də nümunə göstərilə biləcək bir dövlət idi. Rəsmi tarixdən bildiyimiz kimi rus-slavyan tayfalarının yürüşləri ilə süquta uğrayıblar. Bununla bağlı öz araşdırmalarım da olub və 2009-cu ildə "10-cu əsr yəhudi-xəzər yazışması" adlı kitabım da nəşr edilmişdi. "Sirr"də X əsrdə baş verən hadisələrdən bəhs edilir. Mənim, ümumiyyətlə, IX-XIII əsrlər dönəmində baş verən tarixi hadisələrə marağım böyükdür. Çünki o dövr qeyri-adiliklərlə zəngindir, çox maraqlı dönəmdir. Mən də romanımda o dövrü canlandırdım. Kitab Xəzərlərin süqutundan sonra Kiyevin gücələnməsi nəticəsində Svyatoslavın qohum tayfaları özünə tabe etməsi və bu zaman ona dirəniş göstərən rus knyazları ilə savaş açması, oğuz türklərinin təsadüfən bu münaqişələrə cəlb edilməsi fonunda, ilahi sirrləri özündə ehtiva edən qədim əlyazmanı ələ keçirmək istəyən gizli təşkilatla həmin sirrin qoruyucuları arasında gedən şiddətli və acımasız savaşın tam ortasına düşən və ayrı-ayrı dünyaları təmsil edən iki gəncin təmiz hissləri barəsindədir. Çalışmışam ki, xəzərlərin faciəli sonluqla bitən xəyanətlərlə zəngin süqutuna yeni bir baxış sərgiləyim. Eyni zamanda 4000 ildən artıqdır qan çanağına dönmüş Yaxın Şərqdə bitməyən savaşın mahiyyəti ilə bağlı yeni mülahizə ortaya atdım. Adi geyimlərdən tutmuş hətta personajların xarici görünüşünə qədər heç bir təhrif olmasın, bütün məlumatlar tam həqiqəti əks etdirsin deyə bir çox mənbələrdən istifadə etdim.

**- Kitabınızı ”Sirr” adlandırmısınız. Bu “Sirr”in sirri nədədir?**

- Kitabımı ona görə ”Sirr” adlandırdım ki, romanda gizli bir əlyazmanın yoxa çıxmasından söhbət gedir. Həmin əlyazma bir sıra gizlin həqiqətləri və ilahi sirləri özündə ehtiva etdiyinə görə son dərəcə böyük əhəmiyyətə malikdir. Teoloji baxımdan yanaşsaq, İdris Peyğəmbərə verilən müəyyən səhifələr olmuşdur. Bir çox teoloqlar da iddia edirlər ki, bu səhifələrdə yaradılışın sirləri öz əksini tapıb. Bir sıra qədim mənbələr belə iddia edirlər ki, həmin səhifələr və bir sıra başqa əlyazmalar qədim Midiyanın Ekbatan şəhərində saxlanılırmış. Bunun tarixi isə eramızdan əvvəl birinci minilliyin ortalarına aiddir. Əhəmənilərin hücumu ilə Midiyanın süqutu zamanı Ekbatan şəhərindəki həmin kitabxana yandırılır və oradakı əlyazmalar itir. Həmin əlyazmaların harada olduğu barədə indi də heç bir məlumat yoxdur. Mən də öz romanımda bununla bir əlaqə yaradaraq, tarixən mövcud olmuş gizli təşkilatların fəaliyyətinə istinad edərək kitabımı məhz ”Sirr” adlandırdım.

- Yazarların əsər qələmə alarkən keçirdiyi hisslər və onların həmin andakı fikirləri mənə həmişə maraqlı olub. Bəs Siz öz kitabınızı yazarkən nə kimi fikirləriniz var idi?

- Kitabı qələmə alarkən yeganə fikrim tariximizin qaranlıq səhifələrinə müəyyən qədər işıq salmaq olub. Elə tarixi faktlar olub ki, onlar bizə çox təhrif olunmuş, dəyişdirilmiş şəkildə çatdırılıb. Mən də öz növbəmdə bu kimi məsələlərə öz mövqeyimi bildirməyə çalışmışam. Gənclərimizdə tariximizə meyil və diqqət yaratmağa cəhd etmişəm. Kitabda Oğuzların idarəetmə üsulları, bir-biri ilə münasibətləri, onların həyata baxışları və s. öz əksini tapıb. Məsələn, Novruz şənliyi haqqında orada müəyyən bir hissə var. Oxucularda bir növ həmin dövrə maraq və rəğbət yaratmağa çalışmışam. Hər hansı məqaləmiz və ya kitabımızla tariximizə, keçmişimizə öz borcumuzu ödəməyə çalışırıq. Kim nəyi bacarırsa, onu da etməlidir. Milli mənəvi dəyərlərimizdə olan müsbət keyfiyyətlərimiz, qiymətli məqamlar, vacib meyarlar təbliğ olunmalı, gənclərimizə olduğu kimi çatdırılmalıdır. Hər bir ziyalının ən ümdə vəzifəsi və borcu bundan ibarətdir.

**- Bir az da ictimai fəaliyyətinizdən danışaq. Biz bir qədər məlumatlıyıq, təbii ki, amma bu haqda özünüzün danışmağınız daha məqsədəuyğun olardı.**

- *Bizim müstəqil bir araşdırma qrupumuz var - ”Oğuz” Müstəqil Araşdırmaçılar Qrupu (”Oğuz” MAQ).* Bu qrupu yaratmaqda məqsədimiz də milli mənəvi dəyərlərimizin qorunub saxlanmasında dövlətimizə dəstək və yardımçı olmaqdır. Müxtəlif mənbə və araşdırmaları ana dilimizə tərcümə edir, müxtəlif sahələrə aid araşdırmalar aparmağa çalışırıq. Bir sıra nəşrlərimiz var. Bundan əlavə dövlətçilik tariximiz, mənəvi dəyərlərimizlə bağlı bir sıra faktların doğru analiz edilməsi ilə bağlı əsaslı tədqiqat işlərinin həyata keçirilməsi bir ziyalı olaraq hər birimizin üzərinə düşən vacib vəzifədir. Biz də bu vəzifədən irəli gələn borcumuz hesab edərək, ümumi işə öz töhfələrimizi verməyə çalışırıq. Məsələn, 2013-cü ilin aprelində ADPU-nun Tarix fakültəsinin müəllimi Taleh Cəfərovun müəllifliyi ilə ”Qondarma erməni soyqırımı faktların dili ilə” adlı kitabımız nəşr olundu.

**- Bu sizin ilk kitabınızdır?**

- Xeyr, ”Sirr” mənim ilk kitabım deyil, sayca beşincidir. Ondan əvvəl məzmun etibarilə daha çox mənim tədqiqat sahəmi özündə ehtiva edən və beynəlxalq jurnalistika ilə bağlı olan ”Media imperiyası” adlı monoqrafiyam nəşr edildi. Monoqrafiyada media korporasiyaların qlobal informasiya məkanına təsiri problemi araşdırılıb. Əsrdə XXI əsrin əvvəllərində dünya jurnalistikasının inkişafında müşahidə olunan ziddiyyətli məqamlar nəzərdən keçirilir, media korporasiyalarının informasiya məkanına təsiri və inhisar problemi faktoloji materiallar əsasında təhlil edilir.

İnformasiya cəmiyyətinin inkişafı minillik çərçivəsində ən aparıcı dünya konsepsiyalarından biridir. Bu gün hər dövlətin qüvvəsi tək sənaye və hərbi potensialla deyil, birinci növbədə vaxtında qlobal informasiya fəzasına yerləşmək, gələcək informasiya əsrində informasiya ehtiyatları və bilikləri yaratmaq, ondan istifadə etmək qabiliyyəti ilə müəyyən edilir. Bir çox ölkələrdə informasiya cəmiyyətinin formalaşmasının lideri qismində ən yaxşı inkişaf etmiş informasiya infrastrukturuna, ən müasir kommunikasiya texnologiyalarına malik böyük şəhərlər çıxış edir. Son zamanlar psixoloji təsir, ”beyinlərin yuyulmasına” yönəlmiş texnologiyalar inkişaf edir. Belə texnologiyalarda elm və texnikanın, xüsusən də telekommunikasiya və kompüter texnologiyalarının nailiyyətlərindən istifadə edilir. Bu texnologiyaların inkişaf səbəbi iş adamları, siyasətçi, müəllim, alimlərin ən müxtəlif tələbatlarından irəli gəlir və reklam, seçkilər, müxtəlif geosiyasi proseslər, müharibə və digər münaqişələrdə əhəmiyyətli fenomen kimi iştirak edir. Bu mənim sayca ikinci monoqrafiyamdır. İlk monoqrafiyam isə 2006-cı ildə nəşr edilib və beynəlxalq jurnalistikada etik normalarla bağlı idi.




*Xumarxanım Dadaşova*

# Türkiyəli tələbələrin məzun günü

*Universitetdə türk tələbələrin məzun günü keçirildi. Jurnalistika fakültəsinin məzunu Kübra Reisoğlu və beynəlxalq əlaqələr və iqtisadiyyat fakültəsinin məzunu Gizem Sayqının aparıcılıq etdiyi tədbirdə universitetin müəllim-tələbə heyəti iştirak edirdi.* Akt zalında baş tutan tədbirdə çıxış edən prorektor, professor İradə Əliyeva tələbələrin təhsil aldığı müddətdə onlara verilən təhsildən, tələbələr üçün yaradılan imkanlardan danışdı, məzunlara nailiyyətlər arzuladı.

Daha sonra xarici tələbələrlə iş üzrə dekan Gülheyran Rəhimova məzunların sevincinə qoşuldu: “Biz hər zaman tələbələrin yanında olduq, bir çox kədər və sevincləri birgə paylaşdıq. Onların hər birini təbrik edir, gələcək fəaliyyətlərində uğurlar diləyirəm”.

Çıxışçılardan sonra məzunların tələbəlik illərinə aid şəkillərindən hazırlanmış slayd maraqla qarşılandı. Daha sonra filologiya fakültəsinin məzunu Tuğçe Özdəmirin oxuduğu yazı ilə də salonda duyğulu anlar yaşandı.

Tədbirdə universitetin rəqs qrupu Qafqaz xalq rəqsini nümayiş etdirdi. Sonda məzunlar diplomlarını almaq üçün səhnəyə dəvət edildilər.

Azərbaycan Universitetlər Birliyi başqanı Hakan Dinç isə tələbələr adından çıxış edərək universitet rəhbərliyinə və müəllimlərə təşəkkür etdi.






*F.Erüş*
*K.Reisoğlu*

# Psixoloqa sual

## "Konkret hədəflərinə çatmaq üçün çox çalışmalısan"

*Psixologiya hər birimiz, o cümlədən də mənim üçün ən maraqlı elm sahələrindən biridir. Bu sayımızda psixoloq xanımdan - Rəna Musayevadan müsahibə almaq qərarına gəldik. Güman edirəm ki, onunla olan söhbətimiz oxucularda da maraq doğuracaqdır.*



**- Hansı tip temperamentli tələbələr təhsildə daha müvəffəqiyyətli olurlar?**

- Sanqviniklər daha çox maraq göstərir, amma səbirsiz olduqları üçün bunu heç vaxt axıra çatdıra bilmirlər. Fleqmatiklər öz hisslərini həmişə çox gizli saxlayırlar. Onların etibarını qazanmaq bir o qədər də asan deyil. Amma onlar çox səbirli olduğundan onlar daha məqsədyönlü və uğur əldə edə bilən tip insanlardır. Xoleriklər daha əsəbi və daha az təsirə düşən tip insanlardır. Melanxoliklərə isə həm müsbət, həm də mənfi təsir etmək çox asandır.

**- İnsanın hansı sənətin sahibi olduğunu xüsusi testlə bilmək olarmı?**

- Belə bir test yoxdur, amma insanın hansı peşənin sahibi olması onun ürəyində gizlidir, yəni insan məşğul olacağı sənəti özü müəyyən etməlidir. Məşhur psixoanalitik deyirdi ki, insana ziyan onun ağlından yox, arzularından gəlir. Odur ki, sənət seçərkən xüsusilə diqqətli olmaq tələb olunur.

**- İmtahanqabağı stresdən necə can qurtarmaq olar?**

- Bəzi tələbələrdə bu tip streslər, ümumiyyətlə, olmur, amma bir qisim tələbələr isə tam əksinə, çox ciddi həyəcan keçirirlər ki, bu da, təbii ki, nəticədə onların stress yaşamasına səbəb olur. Ümumiyyətlə, "stress" ingilis sözü olub, "gərginlik" deməkdir. Stress mini streslər və maksi streslər olmaqla iki qrupa ayrılır. Mini streslər hər birimizin gündəlik həyatımızda qarşılaşdığımız kiçik narahatlıqlar və həyəcanlardır. Bu, hətta insanın özünüqiymətləndirmə hissini də aşağı salır. Stresdən can qurtarmağın ən yaxşı üsulu autotreninq adlanır. Yəni bu, özünütəlqinə əsaslanır və ən müsbət nəticə göstərən metod da məhz budur.

**- Təhsildə və karyerada uğur qazanmağın sirri nədədir?**

- Uğur qazanmaq üçün mütləq nə istədiyini, yəni konkret hədəflərini müəyyən etməli və bu hədəfinə çatmaq üçün mütləq şəkildə çox çalışmalısan. Bax əsl uğurun sirri bundan ibarətdir.

**- Güclü xarakterli insanla zəif xarakterli insanı fərqləndirən cəhətlər hansılardır? Və ümumiyyətlə, zəif insan özünü güclü xarakterli bir insana çevirə bilərmi?**

- Bilər. İnsan temperament tipi ilə doğulur. Amma xarakteri sosial faktor olduğundan onu cəmiyyət formalaşdırır. İnsanda temperament tipi dəyişmir, amma xarakter dəyişir. İnsanın 4 şeyə: özünə, insanlara, əməyə və əşyalara münasibətləri dəyişdiyi zaman xarakteri dəyişə bilər.

**- Gözlər yalan deməz, - deyirlər. Bu, psixoloji baxımdan nə dərəcədə doğru deyimdir?**

- Fleqmatik temperament tipli insanlar soyuqqanlı olduğundan onların nə hiss etdiklərini, nə düşündüklərini asanlıqla duymaq olmur. İnsanların müəyyən fikirləri onların jestika, mimika və pantemimikaları ilə təzahür edir. Amma bu cəhətlərlə bəzən nələri isə gizləmək də olar. Regionlar üzrə də insanların temperament tipləri fərqlənir, məsələn, vyetnamlıların nə hiss etdiklərini asanlıqla müəyyən etmək olmaz. Onlar fleqmatik tipli insanlardır.

**- Hipnoz nədir? Hipnozla nələr etmək olar?**

- Hipnoz insan beyininin nəyə isə proqramlaşdırılmasıdır. Bunu Nadir İsmayılov özü bizə izah etmişdi. Hipnozla insan hətta xatırlamadığı keçmişinə belə gedə bilər. Hipnoz hətta şüurdan da güclüdür. İnsanlar isə hipnoza daha asan tabe olan və gec tabe olan olmaqla iki qrupa ayrılırlar. Daha zəif xarakterli insanlar hipnoza daha asan, güclü xarakterli insanlar isə hipnoza daha gec tabe olanlardır. Hipnoz zamanı gözlərə diqqətlə baxmaq, toxunmaq ən vacib amillərdir. Birinci toxunuşda insan hipnoza düşür. İkinci toxunuşda isə hipnozdan ayılır. Bu üsullardan qaraçıların çox istifadə etdikləri məlumdur. Bu tip hipnozlara düşməmək üçün hipnozçuların gözlərinə baxmamaq lazımdır.

**- Gördüyümüz yuxular bizə nədən xəbər verir?**

- Yuxu görmək labüd haldır, lakin çox sayda yuxu görmək, xüsusən də rəngli yuxular görmək insanın psixoloji problemlərinin olmasından xəbər verir.

**- Psixologiyada bir çoxumuzun az məlumatlı olduğu məqamlar çoxdur, onlardan biri də letargiya yuxusudur. Bu haqda bizə nə məlumat verə bilərsiniz?**

- Letargiya yuxuya bənzəyir, bir neçə saat və ya həftələrlə davam edə bilər. Hətta belə bir fakt olub ki, bir rus 22 il yuxuda olub, sonra oyanıb. Deyilənə görə, o halda insan her şeyi eşidir, duyur, qavrayır, lakin hərəkət edə bilmir, sanki bədəni ağır daşa bənzəyir, əzələləri ağırlaşır, danışa bilmir. Məşhur rus ədibi Qoqol da bundan əziyyət çəkmişdir.

**- Bəs hər birimizin həyatında baş verən, amma heç birimizin mahiyyətini hələ də dərk etmədiyimiz dejavu haqqında nə deyə bilərsiniz?**

- Dejavu elə bir haldır ki, sanki sən bu anla nə vaxtsa qarşılaşmısan. Elə bil bir kitabı oxumusan və yadından çıxıb, birdən yenidən o kitaba rast gəlirsən və anidən yada düşür. Deyilənə görə, hər kəs həyatında, heç olmasa, bir dəfə dejavu halını yaşayır. Amma normal insanlardan fərqli olaraq, epilepsiya xəstələri bu halı daha çox yaşayırlar. Jemavu hadisəsi də vardır ki, bu, dejavunun tam əksinə olaraq, yaddan çıxmaq deməkdir. İnsan həmişə gördüyü şeyə baxa bilər, amma onu tanımaya bilər, hətta özünü də unuda bilər.

***Xumarxanım Dadaşova***

## "Ali bitkilərin təyin edilməsi və oxuyan quşların monitorinqi"

*Ekologiya və torpaqşünaslıq fakültəsinin, "Bioekologiya" kafedrası və Almaniya-Azərbaycan Əməkdaşlıq birliyinin birgə təşkil etdiyi "Ali bitkilərin təyin edilməsi və oxuyan quşların monitorinqi" mövzusunda təlimin III hissəsi keçirilib.* Təlim çərçivəsində işçi qrupun Xızı rayonu Bakı Dövlət Universitetinin Altıağac təlim tədris-mərkəzində çöl təcrübəsi ezamiyyətləri baş tutub. Ekspedisiya zamanı obyektlərin ( ali bitkilərin (ot, kol və ağacların) müşahidəsi aparılmış, iki nüsxədə herbari nümunələri toplanıb və akustik dinləmələrlə oxuyan quşların növləri müəyyən edilib.

*Həmin təlimdə Bioekologiya kafedrasının müəllim və əməkdaşları ilə yanaşı Biologiya fakültəsinin "Onurğalılar zoologiyası" və "Botanika" kafedrasının müəllim və əməkdaşları da iştrak ediblər.*

# İnsan olmaq çətindir



Vüqar Zəfəroğlu

İnsan yaradılmışların əşrəfidir. Qadir Mövlamız onu xəlq edərkən digər canlılara ona boyun əyməyi, itaət etməyi əmr etdi. Onu digərlərindən üstün qıldı. İnsana elə bir nemət bəxş etdi ki, bütün yaradılmışlar onun necə bir seçilmiş varlıq olduğunun fərqinə varsınlar. İnsan İlahi hikmətin bir təcəssümü olan ruhu və sinəsində hər zaman məhəbbət və ədalət həsrəti ilə döyünən qəlbi ilə fərqləndi. Və o zaman Allah insana mələklər qədər yüksəlmək üçün bir hədd cızmadı. Onun öz həyatı boyu kamilliyə çatması, mənən böyüməsi, ruhən ucalması üçün heç bir manеə qoymadı. Amma heyvanlar kimi aşağı düşməsi, alçaq və rəzil, iyrənc bir məxluqata çevrilməsi üçün heç bir maneə də yaratmadı. Çünki şüuru, ruhu və qəlbi olan, yaradılmışların əşrəfi olan insan yüksəlmək və ya alçalmaq seçimində sərbəst buraxıldı. Yaradanın eşqinə mələklərin belə itaətlə beyət etdikləri insanın özünə həvalə edildi bu seçim.

İnsan xisləti qədər çətin, anlaşılması mümkün olmayan bir qarışıq nəsnə yoxdur. Onun ruhunun dərinliklərində nə hiss etdiyini, qəlbindən nələr keçdiyini duymaq, gözlərindən oxumaq olmur. O, öz içində və ya seçdiyi sifətlərin içində gizlənməyi bacarır. Aldadır.

İnsan son dərəcə qəribə bir varlıqdır! Çox zaman nə istədiyini özü də bilmir! Ele hey nəsə istəyir, tələb edir. İstədiyinə çatır, sonra birdən düşünür ki, əslində istədiyi heç bu deyilmiş... Artıq yeni bir şey arzulayır, yenə də eyni şey təkrarlanır və həyatı da beləcə davam edir...

Ömür dedikləri isə çox qısadır. Nə qədər yaşamağından asılı olmayaraq, elə hey düşünürsən ki, görəsən, hər şeyi çatdıra biləremmi.. Həyat davam etdikcə bütün ağrı-acılara və çətinliklərə sinə gərməyi öyrənirsən, elə hey yeni hədəflər seçir və bu hədəflərə çatmaq üçün hər şeyi edirsən: əlindən gələni də, gəlməyəni də...

Və ümid edirsən... Ümid isə hər gecədən sonra yenidən doğan günəşə bənzəyir... Ümidlər insanı yaşadır... Ümid var olduqca həyat davam edir, ümidlərin tükəndikdə isə sən artıq ölüsən, canlı ölü. Həyatı sonsuz və qaranlıq boşluqla dopdolu olan bir heç!

Həyat dedikləri isə böyük bir yalandır: içində hər şey varg. Və həyatın parlaqlığı sənin gözlərini bürüyəndə insanlığını itirirsən. Əvvəl yalan danışmağı öyrənirsən. Sonra hər cür alçaqlığı, xəyanəti... Halbuki bu dünyaya sən günahsız gəlmişdin. Bəlkə də, gələcək günahlarını bildiyinə görə həyatda atdığı ilk addımında ağlayır insan, bu dünyaya ağlayaraq göz açır. Onu gözləyən pislikləri, çətinlikləri, yalanları duyaraq ağlayır, gedərkən isə yuyulub kəfənlənir. Günahlarından təmizlənmək üçün, arınmaq üçün...

Və bir də ayılırsan ki, artıq zamanın çatıb... Getməlisən: bütün ömrün boyu etdiklərinin günahları və əslində etməli olduqlarının peşmanlığı ilə... Amma faydası da yoxdur ki bu peşmanlığın. Zamanı çatanda "kaş ki bunu edəydim" desən də, heç nə edə bilmirsən. Çünki artıq sonunla başbaşasan... Çünki qısa ömrün, parlaq və yalnız yalanlardan ibarət həyatın sona çatır. Və sən də o sonun axırıncı səhnəsindəsən.

Və bir də "qürur" var, "şərəf", "mənlik" var. İNSANA xas olan keyfiyyətlərdir bunlar. Elə keyfiyyətlərdir ki, nə pul, nə şan-şöhrət - heç bir şey, heç bir parlaqlıq bu keyfiyyətlərlə müqayisə edilməz, edilə bilməz! Məhz bu keyfiyyətlərdir insanı öz insanlıq simasında saxlayan, ona yaradılmışların əşrəfi kimi qürurlu bir ad yaraşdıran! Onu iyrənc bir məxluqa çevrilməkdən saxlayan şərəf, mənlik və qürur!

Dünyada heç bir nemət, heç bir maddiyyat, heç bir insan şəxsin öz qürurundan, mənliyindən üstün tutula bilməz! Əgər bir neməti öz qürurunu satmaq hesabına əldə edərsənsə, o zaman o artıq nemət sayılmaz, zəhər olar! Əgər var-dövlət, mal-mülk qürursuzluqla əldə edilərsə, o zaman onun sənə gətirdiyi ad-san yox, sadəcə utanc, qınaq və pis ad olar! Bu dünyadan köçdükdən sonra adını çəkərkən bir "rəhmətlik" kəlməsini belə yaraşdırmazlar sənə!

Əgər bir insanı, hətta sevdiyin, qiymətləndirdiyin ən yaxın dostun, qohumun, ürək sirdaşın olsa belə, qürurundan, mənliyindən üstün tutarsansa, ona xoş olsun deyə qürurunu alçaldarsansa, özünü əyərsənsə, o zaman həmin insanın gözündən düşərsən: həm qürurundan olarsan, həm də yaxınından. Yalvarmaqla, qürurunu alçaltmaqla, mənliyini ayaq altına atmaqla yaşanmaz; nə ad qazanmaq olar, nə dövlət, nə də sevgi və hörmət saxlamaq!

Bəzən insanı iblislə müqayisə edirlər. Qınamayın, mən qəbul edə bilmirəm. İblis də yaradılışdan bir mələk idi. Və o lənətlənsə də, Yaradana qarşı gələrək asi olsa da, onun asiliyinin səbəbi sevgisi idi. O, öz Yaradanına olan sevgi və diqqətini yaradılmış, xislətində xəyanət, yalan və günah olan bir insana boyun əyməklə bölüşmək istəmirdi. İnsan isə həm Yaradanına, həm insanlığına, həm ruhunun və qəlbinin təmizliyinə, hisslərinə xəyanətlə doldu. Mövlanə demiş, bizlər elə bir məxluqlarıq ki, bəzən mələklər bizdən olmadıqlarına üzülər, bəzən şeytanlar bizimlə bir olmadıqlarına şükür edərlər...

Və insan yaradılmışların içində yeganə varlıqdır, öz təbiətinə, öz ruhuna, öz ürəyinə qarşı gəlir, xəyanət edir!

İnsan olmaq çətindir. Amma ən vacib olanı da elə bunu bacarmaqdır. Hər kəs bacarmır bu insanlığını saxlamağı...

Yazıqlar olsun o kəslərə ki, ucalmaq əvəzinə düşməyi seçdilər. Və xəyallarda, yaddaşlarda yalnız ürəkbulandıran, iyrənc bir məxluq olaraq qaldılar; özləri haqqında heç bir işıqlı, təmiz, gözəl xatirələr buraxmadan...

# İmanımızı itirməyək

*Hər bir insanın ibadət etdiyi din cəmiyyətdə onun haqqında rəy formalaşdırır və onun daxilindən xəbər verir. Din Allahın buyurduqlarını həyata keçirmək və insanları Tanrıya yaxınlaşdırmaq üçün bir vasitədir. Biz etdiyimiz savab işlərlə ona addım-addım yaxınlaşırıq. İnsan hər hansı bir çətinliyə düşəndə nə qədər çıxılmaz vəziyyətdə də olsa, qəlbində inanacağı, güvənəcəyi bir dayaq axtarır ki, bu, bir olan Allahdır. Dinimiz islam dinidir; o, bizi mərhəmətli, ürəyiaçıq olmağa çağırır. Bəs müasir dövrümüzdə, cəmiyyətimizdə necədir? İslam dini hansı mövqedə yerləşir bizim üçün?*

***Bu və digər sualları cavablandırmaq üçün mütəxəssisə müraciət etmək qərarına gəldim. Həmsöhbətim BDU-nun ilahiyyat üzrə fəlsəfə doktoru Qoşqar Səlimli oldu.***

**- Bildiyimiz kimi, islam dini ən müasir və sonuncu dindir. Bəs müasir dünyamızla necə, uyğunlaşırmı və gənclərin dinimizə olan münasibətindən razısınızmı?**

- İslam əslində ən gənc, daxili konsepsiyası və strukturuna görə ən yeni dindir. İslamdan sonra islam kimi qlobal müraciəti olan, bütün xalqlarda ümmət anlayışına sahib olan və bütün xalqları birləşdirən bir din olmayıb. Hal-hazırda gənclərin dinimizə münasibəti "geridə qalmış bir din" kimidir. Əslində isə gənclərin "islam" deyə adlandırdıqları xurafatdır. Yəni bunlar müxtəlif adət-ənənələr, örflərdir ki, misal olaraq, mollaların dediyi, mənşəyinin haradan gəldiyi bilinməyən mülahizələri göstərə bilərik. Buna görə gənclərin "islama nifrət edirik" deməsi doğru deyil, çünki onlar təməldən islamın nə olduğunu bilmirlər. İnsanın normalda hər hansı bir şeyə qarşı çıxması üçün onu əvvəlcə düzgün dərk etməsi vacibdir. Bizim gənclərin ən böyük problemi islamı oxumamalarıdır. Oxuyanların isə yalnız bir sıra məzhəb kitablarından oxumalarıdır ki, bu da islam haqqında tamamilə yalnış fikirlərə gətirib çıxarır. Onu da qeyd etmək istəyirəm ki, dini mollalardan yox, məhz alimlərdən öyrənsinlər.

**- Biz gündəlik həyatımızda "halal" və "haram" ifadələrinə rast gəlirik. Çoxları bu sözləri bilmədən, yerli-yersiz işlədir. Ümumiyyətlə, biz halal və haram dedikdə nə başa düşürük?**

- Ümumiyyətlə, halal və haram anlayışları yalnız islama xas olan bir şey deyil. Dövlət idarəçiliyində, qanunlarda da halal və haram anlayışları var. Məsələn, oğurluq etmək, dövlətə qarşı çıxmaq və s. Bunlar qanunla necə qadağan olunursa, şəriətdə də haramdır. "Haram nədir?" - dedikdə isə insan övladına vерəcəyi zərərləri nəzərə alınaraq, Allah və Peyğəmbər tərəfindən qadağan olunmuş şeylər nəzərdə tutulur. Haram olanların sayı çox məhduddur ki, bunlar faiz, zina, içki, qumar, qeybət və sairdir. Allah insanın mənfəətini bildiyinə görə onun müxtəlif şeylərdən üz döndərməsini istəmişdir. Əslində isə biz düşündükdə bütün bu haram olanların insan və onun ətrafı üçün çox zərərli olduğunu görə bilərik.

**- Bir anlıq düşünək ki, islam dininə ibadət etməyən insanlar bizə "Nə üçün məhz islam?" sualını verirlər. Cavabında nə deyə bilərik?**

- İnsanın öz həyatını düzənli, nizamlı bir şəkildə yaşaması üçün müəyyən qanunlara tabe olması gərəkdir. İnsanın müxtəlif tələbatları vardır ki, bu, ifrat dərəcəyə çatdıqda nəfsin onun üzərində qələbəsi ilə nəticələnir və bu, onun məhvinə səbəb olur. Beləliklə, insan müəyyən cəzalara düçar olmamaq üçün müxtəlif qanunlara tabe olmalıdır. İslam isə insanın cəzasını ertələyərək yaşadığı mühitdə, cəmiyyətdə ona gözəllik, salamatlıq vəd edir. Belə ki, islam insanın cəmiyyətdə formalaşması, ideallaşması üçün mükəmməl bir variantdır. Çünki bu günə kimi təcrübədən keçən dinlər, fəlsəfi axınlar özünü doğrultmadı. İslama xas olan xüsusiyyətləri isə biz Qərb aləmində görə bilmirik. Qərbin hazırkı vəziyyətdə olmasında Şərqin, islamın rolu əvəzsizdir. Əgər pisdirsə, nə üçün Qərb ölkələri islam dininə aid kitabları öz dillərinə tərcümə edirlər? Çünki ehtiyac var.



**- Bəzi Avropa ölkələrinin, yəni müstəmləkəçi ölkələrin, həmçinin ABŞ-ın xarici siyasətinin əsasını müsəlman ölkələrini zəifləmək təşkil edir. Buna "ərəb baharları", hələ keçən əsrdə İsrailin BMT tərəfindən yaradılması sübut idi. Halbuki müsəlman ölkələri hərəy olsalar, çox şey etməyə qadirdir. Bəs niyə bu, bizdə alınmır və müsəlman ölkələri niyə geridədir?**

- Bir çox Avropa ölkələrinin Şərq ölkələrini, xüsusilə də islamın geniş yayıldığı ərazilərdə olan ölkələri geridə buraxması planı çox əvvəllərə, hətta 300-400 il əvvələ gedib çıxır. Onların əsas məqsədi "Biz nə edək ki, bu cəmiyyəti yox edək?"dir. Təbii ki, bir möcüzə olmasa, bizim onlara çatmağımız qeyri-mümkündür, çünki həm elmi, həm də texnoloji baxımdan Avropa və ABŞ çox irəlidədir. Sizin də qeyd etdiyiniz kimi, onların kəşfiyyatlarının törətdiyi "ərəb baharları" buna sübutdur. Çünki Qərb həmişə Şərqdən qorxmuş və çəkinmişdir. Baxmayaraq ki, Şərq sivilizasiyasını, mədəniyyətini mənimsəmişlər, lakin həmişə Şərqə bir vəhşi kimi baxmışlar. Əslində isə onlar həqiqəti, yəni Şərq dövlətlərinin çox güclü olduğunu bilirlər. Sadəcə bunu qəbul etmək istəmir və dünyanın sahibi olmağa çalışırlar. Qərb bunları nə qədər inkar etsə də, Şərq ölkələrinin milli mənəvi dəyərlərinə qayıdışı qarşısıalınmazdır. Lakin Avropa ölkələrinin elmi, texnoloji cəhətdən irəlidə olması da faktdır ki, bu, Şərq ölkələri üçün tez bir zamanda mümkün olacaq bir şey deyil. Bəs necə olacaq bu? Bu, əxlaqi inkişafla, mənəvi inkişafla mümkündür. Siz nəsillərə nümunə olacaq insanlar yetişdirəcəksiniz, siz gələcəyə işıq tutan bu materialist bataqlıq içərisində olanların əlindən tutub çıxaran insanlar yetişdirəcəksiniz ki, sabah çökən Qərbi də siz irəliyə aparacaqsınız. Onlar özlərini qorumaq üçün Şərqi çökdürəcəklərini zənn edirlər, amma dərk etmirlər ki, onları o çöküntü içərisindən çıxaran qüvvə də islam olacaqdır. Hazırda Avropada islam çox sürətlə yayılır, hətta dövlət belə bunun qarşısını ala bilmir.

**- Bizim qəzetimizin oxucuları daha çox universitetimizin tələbələri və müəllimləridir, yəni gənclərdir. Bir mütəxəssis kimi bizə hansı tövsiyələriniz var?**

- Qəzetinizin oxucularına və həmçinin bizim gənc nəslə tövsiyəm odur ki, hər şeydən əvvəl, öz milli mənəvi keçmişlərini bilsinlər. Hər bir insan yaşadığı ölkədə baş verən hadisələrdən, xətalardan dövlət başçısı səviyyəsində xəbərdar olmalıdır ki, gələcəkdə cəmiyyətin bir fərdi olaraq bu cür xətaları təkrarlamasın. Əgər bir dövlət sağlam bir təməl üzərində qurulmaq istəyirsə, maddi maraqlara deyil, milli və mənəvi cəhətdən güclü ideologiyaya söykənən millət yetişdirməlidir. Bizim də millətin əsasını, təməlini gənclər təşkil etdiyindən bizim gənclərimiz, hər şeydən öncə, milli və mənəvi dəyərlərimizi bilməli, öyrənməli və yaşatmalıdırlar. Hər hansı bir şeyi bilmək kifayət etmir, onu yaşatmağı da bacarmaq lazımdır. Hamıya məlumdur ki, hər cəhətdən Azərbaycanın milli və mənəvi dəyərlərinin, adət-ənənələrinin formalaşmasında islamın rolu əvəzsizdir. Ümumiyyətlə, hər bir millətin adətənənəsinin, örfünün, tərbiyəsinin təməlini din təşkil edir. Dinsiz bir cəmiyyət yoxluğa məhkumdur: bir gün yaşayar, ikinci gün məhv olar. Gənclərimiz isə dini öyrənsinlər, doğru qaynaqlardan araşdırsınlar. Təfəkkür, düşüncə və yaşam. Həyata məhz bu şüarlarla baxsınlar...

*Müsahibimlə söhbətimi burada yekunlaşdırdım. Əslində toxunduğum mövzu o qədər çoxşaxəlidir ki, uzun müddət bu barədə müxtəlif müzakirələr aparmaq olar. Həmsöhbətimə isə bu cür səmimi və peşəkarcasına söhbətə görə öz minnətdarlığımı bildirirəm. Əgər bu müsahibə ilə hətta bir neçə nəfərin də olsa, dinimiz haqqındakı düşüncələrini müsbət mənada dəyişdimsə, nə qədər xoşbəxtəm! Gəlin imanımızı və inamımızı itirməyək, çünki onda öz insanlığımızı da itirmiş olarıq. Türk şairi Peyami Səfanın dediyi kimi: "Din üzündən geri qalmadıq, geridə qaldığımız üçün dindən uzaq düşdük".*

**Nigar Səmədli,
Jurnalistika fakültəsi,
I kurs**

# "Dost cana aynadır!"

*İnsan doğulduğu andan kiminsə, nəyinsə dəstəyinə ehtiyac duyur. Yarandığı ilk gündən təbiət, heyvanlar, səslər və s. insana kömək olub, indi də həmçinin. Bu cansız dəstəklərdən əlavə, insana özü kimi düşünən, yaxşı və pis günündə yanında olmağa çalışan, dəyər verdiyi, seçdiyi insanlar kömək olur, hansı ki dost deyib sirrimizi, dərdimizi, sevincimizi bölürük...*

Dünyada hamının dostu olur. Bəzilərinin bir, bəzilərinin bir neçə...

Ümumiyyətlə, nə qədər ünsiyyətcil insan olsan, özünə daha çox insan cəlb edərsən. Amma hamı da dost kimi yanında qalmaz. Birinə güvənərsən, gözüyumulu ona söykənərsən, hər zaman yanında olacağına əmin olarsan. Amma gün gələr, sadəcə istəkdən doğan bir kiçik qısqanclıq ən yaxınını, sevgili dostunu alar səndən. Çünki paylaşmağı bacarmazsan, sən əlindəki oyuncağını kiçik bir uşaq kimi başqa uşaqlarla paylaşa bilməzsən. Çünki o, sənin üçün çox əzizdir.

Biz insanlar beləyik. Əlimizdə olarkən qədrini bilməz, həmişə yanımızda olacaq deyə düşünüb hərəkət edər, "dostumdur daa.." deyib pis hərəkətini zarafat adı ilə üzünə vurarıq Amma, heç düşünmərik... Düşünmərik ki, dost da bir candır, onun da inciyə biləcəyi məqamlar vardır. "Ya bir gün olmasa?" - deyə arabir düşünmək də lazımdır. Bu suala cavab tapmadıqca insanın canı necə də yanır!.. Düşünürsən, düşünürsən, cavab gəlmir, divarlara sual verirsən, susur, onlar da cavab vermir. Bəlkə də, qərar yalnız sənin özündə gizlidir...

"Dost cana aynadır", - deyirlər. Əgər o ayna qırılsa, qırıqları yalnız sənə zərər verəcək. Elə etməliyik ki, bizə doğruları göstərən o ayna qırılıb bizi yaralamasın. Deyəcəyim odur ki, dostlarınızın, dostluğunuzun qədrini bilin. Hər yetənə də dost deməməyi öyrənin, əziz oxucular...

***Fidan Həsənzadə,
Jurnalistika fakültəsi, I kurs***

# Səni itirməkdən yaman qorxuram

Varlığım nişanə, səndən yadigar,
Üzümdə üzünün izin duyuram.
Əsməsin, əsməsin dəli küləklər,
Səni itirməkdən yaman qorxuram.

Gözlərin qayğıdı, əllərin sığal,
İzləri üzündə uzun illərin,
Köksümdə boy atıb mənim dərdlərim,
Səni itirməkdən yaman qorxuram.

Ağlım kəsməyibdir, bilməmişəm mən,
Bəzən çox dəymişəm sənin xətrinə.
İnciklik vermişəm sənin qəlbinə,
Səni itirməkdən yaman qorxuram.

Həyatda olmayım sənsiz bir an da,
Arzumdu, həmişə sən ol yanımda.
Anacan, gözümdən uzaq olanda
Səni itirməkdən yaman qorxuram
Səni itirməkdən yaman qorxuram.

***Vəfa Abdullayeva,
Tarix fakültəsi,
IV kurs***

# "Gözlənilməyəni də gözləyin, ailənizi qoruyun!"

*Özündə milli dəyərləri birləşdirən ailə cəmiyyətin bir parçasıdır. Deməli, ailə cəmiyyətin əsas özəyini təşkil edir. Bu baxımdan, onun qorunmasına xüsusi ehtiyac var. Ailə bizim dəyərlərimizin əsas atributlarından biridir. Ailələr müxtəlif əsaslar üzərində qurula bilər. Təbii ki, məhəbbət əsasında qurulan ailə daha möhkəm və uzunmüddətli olur. Amma təəssüf ki, ailə qurarkən tərəflər bir çox məqamlara diqqət etmir və tələskənliyə yol verərək səhvlər edirlər.*

Müasir dövrümüzdə də yeni ailələr qurularkən insanlar qanunun tələblərinə əməl etməyərək heç bir hüquqi əsası olmayan dini kəbinkəsmələr (dini nikahlar) vasitəsilə ailə həyatı qururlar. Bu cür halların nəticəsi olaraq həmin ailələrin gələcək həyatında ciddi problemlər yarana bilər. Problemlər özünü əsasən boşanmalar zamanı göstərir. Ona görə də boşanma zamanı tərəflər arasında problemlərin yaranmasının qarşısının alınması üçün nikah müqaviləsinin bağlanması labüddür. 2011-ci ildə ölkədə 88145 rəsmi nikah bağlanıb, onlardan cəmi 58-i nikah müqaviləsi imzalayıb. Nikah müqaviləsi bağlayan şəxslər isə ikinci dəfə ailə həyatı quranlardır.

Respublikamızda hər gün onlarla, yüzlərlə insan nikah bağlayır, neçə ailənin təməl daşı qoyulur. Cəmiyyətimizdə nikah iqtisadi mülahizələrdən azad olub, kişilərin və qadınların məhəbbətə, sədaqətə, övlad sahibi olmaq arzusuna əsaslanan könüllü, bərabərhüquqlu ittifaqıdır. Nikah münasibətlərinin tənzimlənməsində nikah müqaviləsinin xüsusi əhəmiyyəti var. Belə ki, nikah müqaviləsi nikaha daxil olan şəxslər arasında bağlanan, nikah dövründə və (və ya) nikah münasibətləri pozulduqda ər-arvadın əmlak hüquqlarını və vəzifələrini müəyyən edən sazişdir (Ailə Məcəlləsi, 38.1 maddə).

Çoxları nikah müqaviləsinin mahiyyətini dərk etmir və düşünürlər ki, nikah müqaviləsi boşanmaq üçündür, yəni yalnız boşanma zamanı bu müqavilə köməyə gəlir. Ər-arvad bir-birinin qarşılıqlı saxlanması, bir-birlərinin gəlirlərində iştirak üsulları və hər birinin ailə xərclərində iştirakı qaydası ilə bağlı hüquq və vəzifələrini, nikah pozulduqda hər birinə düşəcək əmlakı, ər-arvadın əmlak münasibətlərinə dair hər hansı başqa müddəanı nikah müqaviləsi ilə müəyyənləşdirmək hüququna malikdirlər ( Ailə Məcəlləsi, 38.4 maddə).

***Nikah müqaviləsi yazılı şəkildə bağlanır və notarial qaydada təsdiq olunur. Şifahi şəkildə bağlanan nikah müqaviləsinin heç bir hüquqi qüvvəsi yoxdur.***

Nikah müqaviləsi istənilən dövrdə: həm nikahın bağlanmasına qədər, həm nikah bağlanan zaman, həm də nikah dövründə bağlana bilər. Lakin nikah müqaviləsinin hüquqi qüvvəsi yalnız nikah dövlət qeydiyyatına alındığda yaranır.

Nikah müqaviləsinin əhəmiyyətini nəzərə alaraq, onun bağlanmaması nəticəsində yaranan problemləri aşağıdakı kimi qruplaşdırmaq olar:

1.ər və arvadın birgə mülkiyyətində olan mülkiyyətin bölüşdürülməsində problemlər yaranır;

2.boşanma halları daha çox olur;

3.miras məsələlərində ciddi problemlər yaranır;

4.boşanma zamanı uşaqların hüquqlarının pozulmasına şərait yaranır.

Nikah müqaviləsinə dair müddəalar öz əksini Azərbaycan Respublikasının Ailə Məcəlləsinin 38-40-cı maddələrində tapıb. Lakin Məcəllədə nikah müqaviləsi məcburi hal kimi deyil, tövsiyə xarakterlidir. Yəni ailə quran insanlara təklif olunur ki, onlar bu müqaviləni nikah münasibətlərini nizamlamaq və gələcəkdə boşanma baş verəcəyi təqdirdə yarana biləcək problemləri əvvəlcədən tənzimləmək məqsədilə bağlasınlar.

Qeyd edək ki, bir çox insanlar nikah müqaviləsinin mövcudluğundan daha az xəbərdardırlar. Bu baxımdan gəniş maarifləndirmə işlərinin həyata keçirilməsinə, bununla bağlı müxtəlif tədbirlərin, layihələrin, diskussiyaların, debatların və konfransların təşkilinə ehtiyac var. Düşünürəm ki, bu məqsədə nail olmaq üçün əsasən gənclərlə işləmək və onların maarifləndirilməsi ilə məşğul olmaq lazımdır. Əgər gənclər bu sahədə maraqlı olsalar və könüllü olaraq digər insanların da maarifləndirilməsində iştirak etsələr, bu problemi müəyyən qədər həll etmək mümkündür.

**Cavad Mustafazadə
Hüquq fakültəsi,
III kurs**

# Etibarsızdır

Tarix fakültəsinin I kurs tələbəsi Şikarov Coşqun Gündüz oğluna məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Ekologiya və torpaqşünaslıq fakültəsinin II kurs tələbəsi Atakişili Nurlan Bəhram oğluna məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin III kurs tələbəsi Axundov Vüsal Şahin oğluna məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Kitabxanaçılıq və informasiya fakültəsinin I kurs tələbəsi Allahverdiyev Arif Asif oğluna məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Özünü fəth etməyi bacar!
# Bakı Universiteti
№ 06 (1442) 24 iyun 2013-cü il
SON SƏHİFƏ

# ƏNVƏR MƏMMƏDXANLININ 100 İLLİYİ

*Prezident İlham Əliyev Azərbaycan ədəbiyyatının tanınmış simalarından biri, xalq yazıçısı, istedadlı nasir, dramaturq, ssenarist və tərcüməçi Ənvər Məmmədxanlının anadan olmasının 100 illiyi ilə əlaqədar tədbirlər planının hazırlanıb həyata keçirilməsi haqqında sərəncam imzalamışdır: "Ənvər Məmmədxanlı ədəbi prosesə həmişə təravət gətirən əsərləri ilə xalqımızın bədii-mədəni fikir xəzinəsinin zənginləşməsi naminə səmərəli fəaliyyət göstərib. Onun yaradıcılığı ana dilimizə həssas yazıçı yanaşmasının parlaq nümunəsidir".*

Elə bu sərəncama əsasən, BDU-nun filologiya fakültəsinin Müasir Azərbaycan ədəbiyyatı kafedrasında Ənvər Məmmədxanlının yubileyi keçirildi.

Dekan, dosent Məhərrəm Vəliyev tədbiri giriş sözü ilə açdıqdan sonra prezident İlham Əliyevin imzaladığı sərəncamı xatırlatdı. Məhərrəm müəllim xalq yazıçısı Ənvər Məmmədxanlının həyatından danışdı, yaradıcılığı haqqında maraqlı fikirlər bildirdi: "Babək", "Xürrəmilərin ağ şahini", "Bakı gecələri", "Bir adanın sərgüzəşti", "Əfsanəli dağlar", "Məktub", "Buz heykəl" və s. Ənvər Məmmədxanlının müvəffəqiyyətli əsərləridir, oxucunu qane edir, müəllifi haqqında xoş təəssürat yaradır, layiqli söz deməyə imkan verir".

Müasir Azərbaycan ədəbiyyatı kafedrasının müdiri, professor Tofiq Hüseynoğlu yazıçının həyatından, əsərlərindən bəhs etdi. Professor Ənvər Məmmədxanlını Azərbaycan ədəbiyyatını zənginləşdirən, dəyərli ədəbi irs yaradan sənətkar kimi yada saldı, haqqında danışdı.

Sonra professor Qara Namazov Ənvər Məmmədxanlı ilə bağlı maraqlı xatirələrini tədbir iştirakçıları ilə bölüşdü. Qara müəllim Ənvər Məmmədxanlını dəyərli əsərlər müəllif kimi qiymətləndirməklə bərabər, həm də yazıçının gözəl insani xüsusiyyətlərindən söz açdı.

Müasir Azərbaycan ədəbiyyatı kafedrasının əməkdaşı, doktorant Yeganə Qurbanova yazıçının yaradıcılığı haqqında danışdı. O, çıxışında Ənvər Məmmədxanlının yaradıcılıq xəttinin əsasən üç qaynaqdan - müasirlik və tarixi gerçəklik; şifahi və yazılı milli irs; rus və Avropa mədəniyyətindən qidalandığını bildirdi.



Kafedranın əməkdaşı, doktorant Xəyalə Əfəndiyeva isə Ənvər Məmmədxanlının oxuduğu Neft institutunu yarımçıq qoyub taleyini sonsuz həvəs göstərdiyi ədəbiyyata həmişəlik bağlamasından bəhs etdi.

*Sonra Ənvər Məmmədxanlının yaradıcılığını əks etdirən slayd-təqdimatlara baxıldı.*

**Yeganə Qurbanova,**
**filologiya fakültəsinin işçisi və doktorantı**

# Mənim uşaqlıq şəklim



**Ələmdar Cabbarlı**

Universiteti bitirən il tələbələrin dövlət imtahanı, diplom işi kimi qayğıları ilə yanaşı vinetka çəkdirmək kimi azarı da olur. Və bu azarı öldürmək üçün tələbələr studiyalara gedir, fotosessiyalar çəkdirir, bir-biri haqqında sözlər yazırlar və s. və .i. Biz universiteti bitirən il mən də əksər tələbələr kimi bu azarımı öldürmək istədim, amma az qala bu azar məni öldürəcəkdi. Bu istəyim mənim hələ də sağalmayan azarımı elə təzələdi, heç zaman qaysaq tutmayan yarama elə bir divan tutdu ki, indi də o ağrının təsirindəyəm. Məsələ burasındadır ki, həmin tələbə vinetkasını bəzəyən şəkillərin sırasında hamımızın uşaqlıq şəkli də olmalıydı və mənim uşaqlıq şəkillərim kimi uşaqlıq şəkillərim də doğulduğum kənddə girov qalmışdı, şəhid olmuşdu, qanına qəltan edilmişdi. Mən bu ümumi işi görməmək və tələbə yoldaşlarımın yanında üzü qara olmamaq üçün məndən heç seçilməyən bacım oğlunun şəklini həmin vinetkaya verdim. Amma mən bununla yalnız tələbə yoldaşlarımı aldada bildim. Özümün, eləcə də doğulduğum o müqəddəs kəndin yanında üzüm hələ də qaradır. Və həmin gündən mənə elə gəlir ki, o kənddə mənim qoyub gəldiyim ən qiymətli sərvət nə atamın-babamın mülki deyil, nə o əzəmətli dağlar, şəfa mənbəyi olan bulaqlar, sarsılmaz qayalar və s. deyil, məhz mənim orada qalan uşaqlıq şəkillərimdir. Bu, doğulduğum yurdun itkisindən də ağır bir itkidir, ona görə ki, biz heç şübhəsiz o yurdlara dönəcəyik, orada yarımçıq qalan həyatımızı, dağıdılmış evlərimizi bərpa edəcəyik, amma o dağılmış, yandırılmış evin qalıqları altından mənim uşaqlıq şəkillərimin heç külü də tapılmayacaq. Və heç külü də qalmayan bu şəkillərin odu məni bütün ömrüm boyu yandıracaq. Bu, ermənilərin mənim uşaqlığıma, gəncliyimə - bütün həyatıma vurduğu ən böyük zərbədir, sağalmaz yaradır. Uşaqlıq şəkillərimin heç külü də qalmayan kəndimdən təxminən 7350 günlük bir müddət ayırır məni. Çox qəribədir ki, bu yara az da olsa sağalmır, bir gün də olsa qaysaq tutmur, hər gün təzələnir. Və yaşım artdıqca elə bil dərdim də artır, o qərib yurdlar məni özünə daha çox çəkir. İndi o yurdları əvvəlkindən daha tez-tez yuxuda görürəm və mənə elə gəlir ki, hər şeydən güclü olan sözün özü belə bu ağrını ifadə etmək gücündə deyil. Və mən nə qədər uzunçuluq eləsəm, böyük bir roman yazsam belə bu ağrını ifadə etmək gücündə olmayacam. Ona görə də yazımı uşaqlıq şəkillərimin heç külü də qalmayan kəndimi yuxuda görüb və oyanıb da dərhal, ürəyimin qanı ilə yazdığım şeirimlə bitirirəm.

*Vətən həsrətiylə, yurd həsrətiylə,*
*Gözümdən tökülən yaşım göynəyir.*
*O eli, obanı xatırladıqca*
*Yaddaşım od tutur, huşum göynəyir.*

*Qalmışam dünyanın dar qəfəsində*
*Gedib yetişəydim son nəfəsimdə.*
*Bahar həvəsində, yaz həvəsində*
*İçimdə köç salan qışım göynəyir.*

*Könlüm Kəlbəcərə köçüb yuxuda*
*Özünə yurd-yuva seçib yuxuda.*
*Dağların suyundan içib yuxuda -*
*Səhər dururam ki, dişim göynəyir...*

# Doğru danış, sağlam ol!



***Doğru danışmaq təkcə əxlaqi baxımdan deyil,bədənimizində sağlamlığı baxımından xeyirlidir.***

Alman Bild der Wissenschaft jurnalının xəbərinə görə Notre Dame Universiteti könüllü dərnəkdə apardıqları araşdırmaya görə onları 2 qrupa bölmüşdülər.

Ortalama yaşı 31 olan qruplardan birində, 10 həftə boyunca kiçik ya da böyük, yalan deməməli, lazım olarsa cavab da verməməli, istənilən halda yalan ifadə istifadə etməməlidirlər. Digər qrup isə yoxlama məqsədi ilə istifadə olundu. Dərnəkdəki inasanların isə yalan deyib, deməmələri,doğru danışıb, danışmamaqları isə yalan dedektoru vasitəsi ilə yoxlanıldı. Sonda isə belə bir nəticə ortaya çıxdı ki, yalan danışmaqdan qaçan insanların bədənlərinin sağlamlığında yaxşılaşma olduğu ortaya çıxdı. Xüsusilə də baş ağrısı kimi şikayətlər edən dərnəkdəkilər daha da yaxşılaşdıqlarını dedilər.

Araşdırmalardan belə nəticə çıxarmaq olar ki, yalan danışmaq insanda stresə səbəb olduğu üçün, bunun da sadəcə insan psixologiyasına deyil, sağlamlığına da ziyanı var...***Həzrət Əli (ə) buyurub: Heç bir əməl yalan kimi çirkin deyil.***

# Stress ilə mübarizənin 10 qızıl qaydası

***Çalışın stresdən uzaq olasınız,çünki stres bir çox xəstəliklərin yaranmasında mühüm rol oynayır. Təqdim etdiyimiz 10 praktik tövsiyyəyə əməl etməklə stresə asanlıqla qalib gəlmək olar:***



**1.** Düzgün nəfəs almağı bacarmalısınız.Düzgün nəfəs, ağır,dərin və səssiz olmalıdır. Nəfəsinizi verdikdə gərginliyiniz ara- ... dan qalxar və rahatlandığınızı hiss edərsiniz. Nəfəsi burundan alın,ağızdan verin.

**2.** Gündə 10-15 dəqiqə davamlı şəkildə fiziki hərəkətlə məşğul olmaq da stresdən azad olmağa kömək edir.

**3.** İdeal çəkinizi saxlayın,həddindən artıq yağ, şəkər və duzdan uzaq durun.Yeməklərinizi kiçik tikələrlə yavaş-yavaş və çeynəyərək yeyin.Çoxlu su için.

**4.** Axşam eyni saatda yatıb,səhər eyni saatda durmağı vərdiş halına salın.

**5.** Yerinizə yatmaq üçün uzanın,-sıxıntı,kədər,uğursuzluq və ya səhvləri çarpayınızda düşünüb həll etməyin.

**6.** Gün ərzində yaşadığınız gözəl anların bir neçəsini təkrar-təkrar xatırlayaraq,bu şəkildə yuxuya getməyə çalışın.

**7.** Özünüzlə müsbət dialoqlar qurun.Sülhsevər və xoş niyyətli olun.

**8.** Hər hansı bir problem haqqında düşünürsünüzsə,həmin problemi hissələrə ayırıb həll yollarını axtarın.Yenə də uyğun bir variant tapmasanız ümidinizi itirməyin,mütləq bir çıxış yolu vardır-deyə düşünün.

**9.** Stresə səbəb olan halları içinizdə saxlamayın,dostlarınızla,yaxınlarınızla bölüşün.

**10.** Əsəbi halda ani qərar verməyin. Qərar verərkən soyuqqanlı olun.

***Qadin.az***

**Baş redaktor:**
Anzulə ƏMİROVA

**Redaksiya heyəti:**
Solmaz Babaşova,
Aynur Qurbanqızı,
Tamilla Müslümova,
Salam Muxtarov,
Kəramət Böyükçöl

**Redaksiyanın ünvanı:**
Bakı, akad. Zahid Xəlilov küç. 23,
BDU-nun əsas binası, III mərtəbə
**Tel.:** 439-03-64, 439-04-78
e-mail: BU_press@bsu.az

**Sifariş: 163**
**Tiraj: 2000**

VÖEN: 990000213
Lisenziya №-022708
Qəzet "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap olunur.
Əlyazmalar geri qaytarılmır